İQTİSAD elmləri

UOT 339.9
DOI: https://doi.org/10.30546/19063.2025.01.10099

# TÜRKDİLLİ DÖVLƏTLƏR ARASINDA TURİZM ƏLAQƏLƏRİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ ONUN İNKİŞAF PERSPEKTİVLƏRİ

**GÜLNAR XANLAR QIZI SƏMƏDOVA**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu, i.ü.f.d., dos.*
*Azərbaycan Respublikası, Bakı ş., İstiqlaliyyət küç., 30. AZ1001*
*ORCİD: https://orcid.org/0000-0003-1072-3539*
*E-mail: gulnar.samadova@gmail.com*

## XÜLASƏ

Məqalədə, türkdilli dövlətlər arasında turizm əlaqələrinin müasir vəziyyətinin təhlili və onun inkişaf perspektivləri tədqiq olunmuşdur. Dünyada türkdilli ölkələr arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqların iqtisadi səmərəsi müəyyən edilmiş, bu sahədə yarana biləcək problemlər göstərilmişdir.

Məqalənin sonunda, türkdilli dövlətlər arasında turizm əlaqələrinin müasir vəziyyətinin təhlili və onun inkişaf perspektivlərinin təhlilində nəticələr təhlil edilmiş, təkliflər əsaslandırılmışdır. Məqalənin sonunda istinad edilmiş ədəbiyyat siyahısı verilmişdir.

**Açar sözlər:** *türkdilli ölkələr, beynəlxalq təşkilatlar, turizm, iqtisadi əməkdaşlıq.*

## Giriş

Türkdilli ölkələr arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq son illərdə genişlənərək, nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi, turizm əlaqələrinin daha da möhkəmlənməsinə şərait yaratmışdır. Dünya dövlətləri arasında, qarşılıqlı turist axınlarının statistik göstəriciləri, iqtisadi əməkdaşlığın gücləndirilməsinə olan ehtiyacı nümayiş etdirir. Bu sahədə, mövcud vəziyyətin təhlili və gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi türkdilli dövlətlər arasında turizm sahəsində qarşılıqlı fəaliyyətin strateji istiqamətlərini müəyyən etməklə mühüm əhəmiyyət kəsb edir.

## Türkdilli ölkələrdə turizmin inkişaf istiqamətləri

Türkdilli dövlətlər XXI əsrdə dinamik iqtisadi transformasiya mərhələsi yaşayır. Bu ölkələrin iqtisadi inkişafında enerji resursları, kənd təsərrüfatı və sənaye sektoru aparıcı rol oynasa da, son onillikdə turizm sahəsi də sürətlə artmaqdadır.

**Cədvəl № 1**

**Türkdilli ölkələrdən gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkələr üzrə sayı (2019 -2024)**

| Ölkələr | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|
| Türkiyə | 316 404 | 160 513 | 197 472 | 311 880 | 378 204 | 426 241 |
| Qazaxıstan | 47 495 | 8 497 | 6 916 | 30 350 | 58 072 | 86 304 |
| Özbəkistan | 23 471 | 5 282 | 4 206 | 26 309 | 39663 | 46 396 |
| Türkmənistan | 52 092 | 8 256 | 2 738 | 11 188 | 26 015 | 33 020 |
| Qırğızıstan | 4 460 | 859 | 836 | 3 240 | 5 829 | 8 715 |
| Cəmi | **443 922** | **183 407** | **212 168** | **382 967** | **507 783** | **600676** |

*Mənbə: https://tourismboard.az/az/page/872-turizm-uzre-vahid-melumat-bazasi*

Cədvəl 2019–2024-ci illərdə Türk dilli ölkələrdən Azərbaycana gələn turistlərin sayını özündə əks etdirir. 2019-cu ildə 443 922 nəfər, 2020-ci ildə (pandemiya ili) 183 407 nəfər (kəskin azalma), 2021-ci 212 168 nəfər (yavaş bərpa), 2022-ci ildə 382 967 nəfər (artım), 2023-cü 507 783 nəfər (ən yüksək göstərici), 2024-cü ildə 600676 nəfər (rekord səviyyə), 2025-ci ilin (6 ayı ərzində) 307 237 nəfər yüksəlmişdir.

Təhlildən məlum olur ki, Azərbaycana Türkiyədən gələn turistlər 2019 -cu ildə 316 404 nəfər, 2024-cü ildə 426 241 nəfər (ən yüksək göstərici), Qazaxıstan 2019-cu ildə 47 495 nəfər, 2024- cü ildə 86 304 nəfər (pik), 2025-ci ilin 6 ayı ərzində 45 040 nəfər, Özbəkistan 2019-cu ildə 23 471 nəfər, 2024-cü ildə 46 396 nəfə, 2025-ci ilin 6 ayı ərzində 23 298 nəfər, artım davam edir. Türkmənistan 2019-cu ildə 52 092 nəfər, 2024-cü ildə 33 020 nəfər, 2025-ci ilin 6 ayı ərzində 15 579 nəfər, Qırğızıstan 2019-cu ildə 4 460 nəfər, 2024-cü ildə 8 715 nəfər (ən yüksək), 2025-ci ilin 6 ayı ərzində 5 054 nəfər təşkil etmişdir.

Cədvəl № 2

**Türkdilli ölkələrdən Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkələr üzrə sayı (2024 -2025)**

| Ölkə | Gəlmə sayı 2025 | Gəlmə sayı 2024 | Fərq % |
|---|---|---|---|
| Türkiyə | 213 799 | 213 617 | 0.1% |
| Mərkəzi Asiya | 88 971 | 78 166 | +13.8% |
| Qazaxıstan | 45 040 | 38 051 | 18,4% |
| Özbəkistan | 23 298 | 21 124 | 10,3% |
| Türkmənistan | 15 579 | 15 396 | 1,2% |
| Qırğızıstan | 5 054 | 3 595 | 40% |
| **Cəmi** | **302770** | **291 783** | **3,8%** |

*Mənbə: https://tourismboard.az/az/page/872-turizm-uzre-vahid-melumat-bazasi*

Cədvəldən də göründüyü kimi, 2024-cü ilin iyun ayında 291 783 nəfər, 2025-ci ilin iyun ayında turistlərin sayı 302770 nəfər (artım +3,8%) təşkil etmişdir. Bu, ümumi olaraq turizm axınında müsbət dinamikanın olduğunu göstərir.

Regionlar üzrə nəzər yetirsək, Türkiyə 2025-ci ildə 213 799 nəfər, 2024-cü ildə 213 617 nəfər, (dəyişmə: cəmi +0,1%). Türkiyədən gələnlərin sayı sabit qalıb və ciddi artım yoxdur.

Mərkəzi Asiya ölkələri (ümumi) 2025-ci ildə 88 971 nəfər, 2024-cü ildə 78 166 nəfər (artım: +13,8%) təşkil etmişdir. Mərkəzi Asiyadan gələn turistlərin sayı nəzərəçarpacaq dərəcədə artıb.

Ölkələr üzrə təhlil aparsaq görərik ki, Qazaxıstandan gələnlər 2025-ci ildə 45 040, 2024-cü ilə nisbətən 38 051 (artım: +18,4%) olmuşdur. Qazaxıstan Mərkəzi Asiya ölkələri arasında ən böyük mənbədir. Özbəkistan 2025 -ci ildə 23 298, 2024 -cü illə müqayisədə 21 124 (+10,3%) sabit, amma davamlı artım müşahidə olunur. Türkmənistan 2025 -ci ildə 15 579, 2024-ci illə müqayisədə 15 396 (+1,2%) zəif artım olmuşdur. Qırğızıstan 2025-ci ildə 5 054, 2024-cü ildə 3 595 (+40,6%) böyük nisbətdə artım var, amma ümumi say hələ ki, azdır.

Əsasən istirahət, yeni mədəniyyətləri tanımaq, tarixi və təbiət abidələrini görmək arzusu, işgüzar fəaliyyətlər, təhsil almaq, müalicə məqsədi ilə səfərlər, eləcə də ailə və dost ziyarətləri və s. xaricə səfər etmək tələbatı və istəyi yaradır. Nəticə etibarilə, xarici səfərlər həm şəxsi maraqlar, həm də sosial-iqtisadi şərtlərin təsiri ilə yaranır. Cədvəl 4- də 2019-2025-ci illərdə Azərbaycan vətəndaşlarının Türk dilli ölkələrə səfərləri aşağıdakı cədvəldə əks olunmuşdur.

Cədvəl № 3

**2019-2024-cü illərdə Azərbaycandan Türk dilli ölkələrə gedənlərin sayı**

| Ölkələr | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|
| Türkiyə | 36 425 | 42 226 | 13 374 | 35 277 | 41 753 | 53 979 |
| Qazaxıstan | 2 463 | 2.244 | 925 | 1 098 | 3 131 | 3 351 |
| Türkmənistan | 1 747 | 1 774 | 1 428 | 1 497 | 1 024 | 1 161 |
| Özbəkistan | 371 | 490 | 0 | 10 | 749 | 826 |
| Qırğızıstan | 9 | 30 | 13 | 31 | 32 | 21 |
| Cəmi | **41 015** | **46 764** | **15 740** | **37 913** | **46 689** | **59 338** |

*Mənbə: https://app.powerbi.com/view?r=eyJrIjoiNDFhNzI5Y2EtMTEzNC00YTM4LWJiZTAtZmRlMGU5ODEwMTgyIwidCI6ImEyYzYwMDliLWExNWQtNGMzMC05YzQzLWNiMTkxNjZjNGIwOCIsImMiOjl9*

Cədvəlin ümumi dinamikası göstərir ki, Azərbaycandan Türkdilli ölkələrə səyahət edənlər 2019-cu ildə 41 015 nəfər, 2020-ci ildə 46 764 nəfər (+14%), 2021-ci ildə 15 740 nəfər (–66%) – pandemiyanın ən ağır dövrü, 2022-ci ildə 37 913 nəfər (+141%) – (pandemiyadan sonra bərpa), 2023-cü ildə 46 689 nəfər (+23%), 2024 -cü ildə 59 338 nəfər (+27%), 2025 -ci ilin (6 ayında) 62 336 nəfər (+5%) olmuşdur. Buradan belə bir nəticəyə gəlmək olar ki, 2021-ci ildə ciddi azalma olsa da, sonrakı illərdə davamlı artım müşahidə olunur və 2024-cü ildə ən yüksək səviyyəyə çatır.

Ölkələr üzrə təhlil göstərir ki, Türkiyə hər zaman turistlərin əsas istiqaməti olub. 2019-cu ildə 36 425, 2024-cü ilə 53 979-a yüksələrək +17 554 -lə (+48,2%) artım qeydə alınmışdır. 2021-ci ildə pandemiya dövründə kəskin azalma olsa da (13 374 nəfər), 2022-ci ildən sonra sürətli bərpa olmuşdur. 2024-cü ildə Azərbaycandan Türkiyəyə səyahət edən turistlər rekord göstəricilərə, 53 979 nəfərə çatmışdır.

İkinci səyahət edilən ölkə Qazaxıstandır. 2019-cu ildə 2 463, 2024-cü ildə 3 351 min olmaqla (+36,05%) artım qeydə alınmışdır. 2020–2021-ci illərdə eniş (pandemiya), amma 2022-ci ildən sonra sabit artım başlamışdır. Hələ ki, Türkiyə ilə müqayisədə çox kiçik paya sahibdir (6%).

Üçüncü səyahət edilən ölkə Türkmənistandır. 2019-cu ildə 1 747, 2024-cü ildə 1 161 nəfər olmaqla 586 fərq (-33,5%) müşahidə olunur. 2020-2021-ci illər azalma dövrü, son illərdə yenidən artım var. Qeyd edilən pay çox azdır (~3%).

Dördüncü ölkə Özbəkistandır. 2019-cu illə müqayisədə (371), 2024-cü ildə 826 olmaqla 2 dəfədən

çox artmışdır. 2021-ci ildə pandemiya səbəbindən turist axını olmamış, 2022-ci ildən sonrakı illərdə artım davam etmişdir.

Beşinci ölkə olaraq Qırğızıstanı qeyd etmək olar. 2019-cu ildə 9 nəfər, 2024-cü ildə 21 nəfər olmaqla ən kiçik paya malik ölkədir. Baxmayaraq ki, 2025-ci ilin 6 aylıq hesabatında ölkəyə gələnlərin sayı 221 nəfərə yüksəlmişdir, yenə də digər Türk dilli ölkələrlə müqayisədə az paya malikdir.

Qeyd etmək lazımdır ki, əsasən Türkiyə dominantdır (90%-dən çox pay) və artım dinamikası davam edir. Qazaxıstan və Türkmənistan ikinci səviyyə bazardır, lakin sabit artım göstərir. Özbəkistan və Qırğızıstan hələ zəifdir, amma artım tempi yüksəkdir (xüsusilə Qırğızıstanda).

Yekun olaraq qiymətləndirsək, 2019–2024-cü illərdə artım meyli sabitdir, xüsusilə 2022-ci ildən sonra güclü bərpa müşahidə olunur. Türkiyə əsas istiqamət olaraq qalacaq, amma Mərkəzi Asiya ölkələri (xüsusilə Qazaxıstan və Özbəkistan) gələcəkdə daha önəmli paya malik ola bilər. Turizm əlaqələrinin diversifikasiyası üçün Mərkəzi Asiya bazarına yönələn proqramlar, vizasız rejimlərin təkmilləşdirilməsi və nəqliyyat əlaqələrinin gücləndirilməsi vacibdir.

**Cədvəl №4**

**2025-ci ilin ilk 5 ayında Azərbaycandan gedən turistlərin sayı**

| il / year<br>ölkələr / countries | January | Fevral / February | Mart / March | Aprel / April | May / May | 2025<br>Cəmi / Total | Cəmi / Total |
|---|---|---|---|---|---|---|---|
| Türkiyə / Türkiye | 55 551 | 53 812 | 61 684 | 57 537 | 66 251 | **294 835** | **294 835** |
| Qazaxıstan / Kazakhstan | 3 787 | 3 150 | 3 955 | 4 814 | 4 801 | **20 507** | **20 507** |
| Türkmənistan / Turkmenistan | 1 938 | 1 290 | 1 350 | 1 253 | 1 519 | **7 350** | **7 350** |
| Özbəkistan / Uzbekistan | 849 | 868 | 1 378 | 1 600 | 1 733 | **6 428** | **6 428** |
| Qırğızıstan / Kyrgyzstan | 211 | 175 | 196 | 398 | 254 | **1 234** | **1 234** |
| **Cəmi / Total** | **62 336** | **59 295** | **68 563** | **65 602** | **74 558** | **330 354** | **330 354** |

*Mənbə: https://app.powerbi.com/view?r=eyJrIjoiNDFhNzI5Y2EtMTEzNC00YTM4LWJiZTAtZmRlMGU5ODEwMTgyIiwidCI6ImEyYzYwMDliLWExNWQtNGMzMC05YzQzLWNiMTkxNjZjNGIwOCIsImMiOjl9*

2025-ci ilin ilk 5 ayında (cədvəl 4) Azərbaycandan gedən turistlərin statistikasına nəzər yetirsək, görərik ki, Türkdilli ölkələr içərisində əsas istiqamətlərdən bir Türkiyədir (ümumi səfərlərin 89%-i). Mərkəzi Asiya ölkələri birlikdə10%-lik paya malikdirlər. Qazaxıstan (6,2%), Türkmənistan (2,2%), Özbəkistan (1,9%), Qırğızıstan (0,4%). Bu fakt onu göstərir ki, turizm axınları Türk dövlətləri arasında çox güclüdür və qarşılıqlı əlaqələr əsasən bu məkan üzərində qurulub.

Türkiyədən sonra ikinci yerdə Qazaxıstan, digər Mərkəzi Asiya ölkələri (Türkmənistan, Özbəkistan, Qırğızıstan) nisbətən kiçik paya sahibdirlər. Aylıq dinamika müsbətdir: fevralda azalma olsa da, mart–may aylarında ciddi artım var. Bu, yaz-yay mövsümünə keçidlə bağlıdır.

Nəticə etibarı ilə Azərbaycan vətəndaşlarının əsas turizm istiqaməti dəyişməz olaraq Türkiyədir. Mərkəzi Asiya ölkələrinə gedənlərin sayı isə nisbətən artsa da, ümumi pay çox kiçikdir. Turizm siyasəti baxımından, Mərkəzi Asiya ölkələrinə uçuşların və xidmətlərin genişləndirilməsi bu istiqamətdə axını artıra bilər.

Turistlərin səfər motivasiyalarını analiz etmək ölkələrin turizm siyasəti üçün vacibdir. Hansı məqsədlə səfərin üstünlük təşkil etməsi, həm turizm məhsullarının formalaşmasına, həm də iqtisadi gəlirlərin artırılmasına təsir edir.

## Türkdilli dövlətlər arasında turizm əməkdaşlığının mövcud vəziyyəti

Türkdilli dövlətlər arasında turizm əməkdaşlığı son illərdə nəzərəçarpacaq dərəcədə inkişaf etmişdir. Bu əməkdaşlıq ikitərəfli, çoxtərəfli formatlarda özünü göstərir. İlk növbədə qeyd edilməlidir ki, Mərkəzi Asiya ölkələri (Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan) ilə Azərbaycan və Türkiyə arasında turizm sahəsində əməkdaşlıq dinamik şəkildə genişlənməkdədir (İsmailov, 2020, s. 47).

Əməkdaşlığın əsas istiqamətləri bunlardır:
- turizm vizalarının sadələşdirilməsi;
- birgə sərgilər və yarmarkaların təşkili;
- aviaşirkətlər arasında uçuşların artırılması;
- ortaq turizm brendlərinin yaradılması.

Məsələn, 2022-ci ildə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində "Ortaq Turizm Məkanı" konsepsiyası müzakirə olunmuşdur. Bu təşəbbüsün məqsədi region ölkələrini vahid turizm marşrutu üzərindən tanıtmaqdır (TDT, 2022).

Statistik göstəricilər də əməkdaşlığın mövcudluğunu sübut edir. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə, 2019-cu ildə Azərbaycana gələn turistlər arasında Qazaxıstan və Qırğızıstandan olan ziyarətçilərin sayı əvvəlki illə müqayisədə 15% artmışdır. Özbəkistandan Azərbaycana gələn turistlərin sayında da 2018–2022-ci illər ərzində davamlı artım qeydə alınmışdır (UNWTO, 2023).

**Türkdilli dövlətlər arasında iqtisadi əməkdaşlıq əlaqələrinin inkişaf istiqamətləri**

Turizm sahəsində əməkdaşlığa verilən önəmin təzahürü olaraq 2014-cü ildə Bodrumda keçirilən 4-cü Zirvə Toplantısının mövzusu "Turizm əməkdaşlığı" olub. Bodrum Sammitindən sonra bu sahədə əməkdaşlığın genişləndirilməsi istiqamətində səylər sürətlənib. Bu səylər xüsusilə tarixi İpək Yolunun cəlbedici turizm məkanına çevrilməsinə yönəldilib. Bu çərçivədə, Bodrum Sammitində Üzv Dövlət Başçılarının verdiyi tapşırıqlara uyğun olaraq Katiblik Müasir İpək Yolu Birgə Tur Paketini hazırlayıb. Birgə Tur Paketinin türk dövlətləri arasında turist axınının artırılmasında və üçüncü tərəflərin bu ölkələrə turist səfərlərinin təşviqində perspektivli rolu layihənin mühüm ölçüsünü təşkil edir.

Birgə peşə hazırlığının keçirilməsi Üzv Dövlətlər arasında turizm əməkdaşlığının digər əsas elementidir. Katibliyin koordinasiyası ilə əlaqədar nazirliklər və turizm təşkilatları ilə əməkdaşlıq çərçivəsində 1500-dən çox ekspert Üzv Dövlətlərin turizm mütəxəssisləri üçün xidmət sektorunda peşə təhsili alıb. Bu potensialın yaradılması təşəbbüsü DİM-lərə (Dayanıqlı İnkişaf Məqsədləri) nail olmaq üçün ən yaxşı təcrübə kimi BMT-nin bir neçə hesabatının mövzusu olmuşdur.

**Türkdilli dövlətlər arasında iqtisadi əlaqələrin inkişaf perspektivləri**

Statistik modellər əsasında 2030-cu ilə qədər proqnoz turizm sektorunun inkişafı qlobal miqyasda olduğu kimi, türkdilli dövlətlər arasında da dinamik dəyişikliklərlə xarakterizə olunur. BMT Dünya Turizm Təşkilatının (UNWTO) proqnozlarına əsasən, 2030-cu ilə qədər dünya üzrə beynəlxalq turistlərin sayı 1,8 milyard nəfərə çatacaq (UNWTO, 2023). Bu artımın müəyyən hissəsi Mərkəzi Asiya və Qafqaz regionuna yönələcəkdir.

Azərbaycan, Qazaxıstan, Özbəkistan və Türkiyə üzrə aparılan trend təhlili göstərir ki, 2018–2024-cü illərdə turist axınında illik orta artım tempi 6–8% arasında dəyişmişdir (World Bank, 2024). Eyni zamanda, proqnoz modelləri göstərir ki, region daxilində turizm əlaqələri daha çox intraregional səciyyə daşıyacaqdır. Əgər bu meyil qorunarsa, 2030-cu ildə türkdilli dövlətlərə gələn turistlərin sayı 70–80 milyon nəfərə çata bilər.

**Nəticə**

Müasir dövrdə rəqəmsal texnologiyalar turizmin inkişafında həlledici rol oynayır. Qlobal turizm bazarında rəqabət aparmaq üçün ölkələrin turizm məhsullarını rəqəmsal formada təqdim etməsi vacibdir. Türkdilli ölkələrin turizm resursları zəngin olsa da, onların onlayn şəkildə vahid platformada təqdimatı yoxdur. Bu isə turistlər üçün məlumat əldə etməyi çətinləşdirir və bazar imkanlarından tam istifadə olunmur.

*Tamamilə Türk dünyasına xas olması* – Hazırda beynəlxalq turizm platformaları (Booking, Trip Advisor, Expedia və s.) var, amma onlar Türkdilli ölkələrə məxsus ortaq platforma yaratmayıblar. Bu platforma yalnız Türk dövlətlərinin turizm potensialına həsr olunacaq.

*Çoxdilli, amma Türk dillərinə üstünlük* – Mövcud platformalarda türk dilləri əsasən nəzərə alınmır. Yeni modeldə Azərbaycan, türk, qazax, qırğız, özbək və türkmən dillərində tam funksionallıq olacaq. Bu da türk xalqları arasında mədəni yaxınlaşmanı gücləndirəcək. Bununla da mədəni inteqrasiyanın rəqəmsallaşdırılması – platformada yalnız turizm deyil, həm də ortaq mədəniyyət (festivallar, milli mətbəx, folklor tədbirləri, UNESCO siyahısında olan abidələr) xüsusi bölmədə təqdim olunacaqdır.

*Vahid ödəniş və bron sistemi* – Platformada "TürkPay" tipli ortaq elektron ödəniş sistemi qurula bilər. Bu, həm turistlərə rahatlıq verər, həm də türkdilli ölkələrin iqtisadi inteqrasiyasını dəstəkləyər. Bu baxımdan, Türk dünyası üçün "Virtual Səyahət Mərkəzi" – VR (virtual reallıq) və AR (artırılmış reallıq) texnologiyaları vasitəsilə istifadəçilər evdən çıxmadan Göy Göldə, İssık-Kulda və ya Səmərqənddə virtual tur edə bilərlər.

Azərbaycan ərazisindən keçən və nəzərdə tutulan nəqliyyat dəhlizlərinin türkdilli dövlətlərin turizm axınlarına təsirində nəticə olaraq, xüsusi anlam daşıyır. Azərbaycan üzərindən keçən nəqliyyat dəhlizləri – Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu), Şimal–Cənub, eləcə də perspektivdə Zəngəzur dəhlizi yalnız yükdaşımalar üçün deyil, həm də insanların hərəkətliliyini təmin edən əsas arteriyalara çevrilməkdədir. Bu dəhlizlərin inkişafı türkdilli dövlətlər arasında turizm əlaqələrinin intensivləşməsinə birbaşa təsir göstərəcəkdir. Əgər indiyədək turistlər əsasən hava nəqliyyatından istifadə edirdilərsə, dəhlizlərin tam işə düşməsi ilə daha ucuz, qısa və rahat quru yol səyahətləri mümkün olacaqdır. Eyni zamanda marşrut turizmi (bir səfərdə bir neçə ölkəni görmək) yeni formatda inkişaf edəcəkdir. Regional inteqrasiyanın vizual simvolu olaraq dəhlizlər turizmin mədəni körpüsünə çevriləcəkdir.

Türkdilli ölkələr arasında turizm əməkdaşlığının

gücləndirilməsi üçün yeni mexanizmlərə ehtiyac vardır. Mövcud təcrübə göstərir ki, Türkiyə və Azərbaycan arasında vizasız gediş-gəliş, turizm potensialının qarşılıqlı tanıdılması və birgə təbliğat işləri turist axınını xeyli artırmışdır. Lakin digər türkdilli dövlətlər arasında bu sahədə müəyyən boşluqlar qalmaqdadır: turizm potensialı haqqında məlumat az yayılır, turizm bazarında ortaq brend formalaşmayıb və təcrübə mübadiləsi kifayət qədər intensiv deyil. Ona görə də türkdilli ölkələrin turizm əlaqələrinin dərinləşdirilməsi istiqamətində institusional yanaşma zəruri görünür. "Türk Dünyası Turizm Marşrutu"nun yaradılması Azərbaycan üzərindən keçən dəhlizlər boyunca vahid turizm marşrutu işlənməlidir. Məsələn: İstanbul – Bakı – Naxçıvan – Daşkənd – Astana – Bişkek xətti üzrə mədəniyyət, tarixi irs və təbiət abidələrini birləşdirən kompleks proqram. Bu marşrut həm dəhlizlərin funksional imkanlarını göstərər, həm də türk dövlətlərinin birliyini simvolizə edər.

Turistlər üçün vizasız dəhliz rejimi. Dəhlizlərdən istifadə edən turistlər üçün sadələşdirilmiş gediş-gəliş (məsələn, 72 saatlıq tranzit vizasız keçid) tətbiq olunsa, həm də tranzit turizm canlanacaqdır. Bu da ölkələr arasında qarşılıqlı turist mübadiləsini artıracaq.

"Dəhliz Turizmi" üzrə rəqəmsal xəritə və mobil tətbiq. Hər bir turist üçün interaktiv tətbiq hazırlanmalı, dəhliz boyunca hansı şəhərlərdə hansı tarixi abidələr, muzeylər, milli mətbəx nümunələri, festivallar var – bunlar real vaxtda göstərilməlidir. Bu həm turistin marşrut planlamasını asanlaşdırar, həm də ölkələrin turizm gəlirlərini artırar.

Birgə tanıtım kampaniyaları. Türkdilli dövlətlər dəhlizləri yalnız "nəqliyyat layihəsi" kimi deyil, həm də turizm brendi kimi tanıtmalıdırlar. Məsələn: "Zəngəzur dəhlizi ilə Türk Dünyasına Səyahət" şüarı altında beynəlxalq sərgilərdə ortaq stendlər qurula bilər. Buradakı təklifin fərqi ondadır ki, dəhlizlərə yalnız iqtisadi baxımdan deyil, turizmin yeni inkişaf modelinin əsas sütunu kimi yanaşılır.

Turizmin ən güclü sosial tərəfi mədəniyyətlərarası təmasdır. Türk dövlətlərinin gəncləri arasında əlaqələr hazırda daha çox təhsil və diaspor xətti ilə qurulur. Amma turizm sahəsində sistemli gənclər mübadiləsi yoxdur. Halbuki bu, gələcəkdə türk xalqlarının daha sıx inteqrasiyasını təmin edə bilər. Türkdilli ölkələr zəngin mineral bulaqlara, termal mənbələrə, müalicəvi palçıq və sağlamlıq mərkəzlərinə malikdir. Lakin bu imkanlar hazırda ayrı-ayrılıqda təqdim olunur və qlobal rəqabətdə (məsələn, Avstriya, Macarıstan, Koreya ilə müqayisədə) zəif qalır.

Türkdilli dövlətlər arasında siyasi və iqtisadi əməkdaşlıq mexanizmləri mövcuddur, lakin turizm diplomatiyası ayrıca strateji alət kimi işlənməyib. Halbuki ortaq sərgilər, beynəlxalq turizm sərgilərində birgə pavilyonlar və festival diplomatiyası vasitəsilə Türk dünyasının "yumşaq güc"ü ciddi şəkildə artıra bilər.

**Təkliflər:**

- Türkdilli ölkələr arasında qarşılıqlı turist axınını artırmaq, turizm potensialını birgə tanıtmaq və türk dünyasının ortaq turizm brendini formalaşdırmaq;
- Vizasız və sadələşdirilmiş səyahət imkanlarını genişləndirmək;
- Ölkələrin fərqli turizm məhsullarını öyrənmək və ortaq marşrutlar hazırlamaq;
- Təcrübə mübadiləsi üçün sərgilər, infoturlar və ortaq təbliğat kampaniyaları təşkil etmək;
- Rəqəmsal platformalar vasitəsilə (sosial media, onlayn videoçarxlar, mobil tətbiqlər) ortaq tanıtımı həyata keçirmək.
- Hər yay və qış mövsümündə "Türk Dünyası Gənclər Turizm Düşərgələri" təşkil etmək.
- Universitetlərarası turizm səfərləri üçün güzəştlər (təyyarə biletində, hosteldə və giriş biletlərində endirim).
- Müştərək könüllülük proqramları – UNESCO abidələrinin qorunmasında və ya festivallarda gənclərin iştirakı.
- "Bir Türk ölkəsindən dost qazan" adlı onlayn proqram və səyahət klubu.
- "Türk Sağlamlıq Marşrutu" – Naftalan (Azərbaycan), İssık Kul (Qırğızıstan), Səmərqənd sanatoriyaları (Özbəkistan), Almatı termal mərkəzləri (Qazaxıstan), Pamukkale (Türkiyə) kimi məkanları bir paketdə təqdim etmək.
- Ortaq tibb-turizm sertifikatı – klinikaların beynəlxalq keyfiyyət standartlarına uyğunlaşdırılması.
- Sağlamlıq turizminə dair onlayn məlumat bazası və bron sistemi.
- Brendinq: "Türk dünyası – sağlam həyat məkanı".
- Türkdilli ölkələr arasında "Mədəniyyət və Turizm Diplomatiyası Forumu"
- Hər il rotasiya əsasında bir türk ölkəsində "Türk Dünyası Mədəniyyət və Turizm Forumu"nun keçirilməsi.
- Ortaq film festivalları, qastronomiya həftələri və musiqi gecələri vasitəsilə turizm təbliği.
- UNESCO ilə birgə layihələr – ortaq irs siyahısına yeni abidələrin daxil edilməsi.
- "Türk Dünyası Mədəniyyət Brendi"nin yaradılması və qlobal sərgilərdə tanıdılması.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Gəlmə Statistikası/Arrival Statistics (June 2025). Links for statistics and graphs: https://app.powerbi.com/view?r=eyJrIjoiZjQwNzIwYzQtY2Y0NC00NWRiLTk1NDctNzZhZjkyOTc4MWNjIiwidCI6ImEyYzYwMDliLWExNWQtNGMzMC05YzQzLWNiMTkxNjZjNGIwOCIsImMiOjl9*

*2. Turizm Şurası / Azerbaijan Tourism Board. (n.d.). Turizm üzrə vahid məlumat bazası [Single tourism information database]. https://tourismboard.az/az/page/872-turizm-uzre-vahid-melumat-bazasi*

*3. Turizm Şurası / Azerbaijan Tourism Board. (n.d.). Turizm üzrə vahid məlumat bazası. https://tourismboard.az/az/page/872-turizm-uzre-vahid-melumat-bazasi*

*4. Google Scholar. (n.d.). Citation details. Google Scholar. https://scholar.google.com/citations?view_op=view_citation&hl=ru&user=5lcw_QcAAAAJ&citation_for_view=5lcw_QcAAAAJ:fPk4N6BV_jEC*

*5. Azərbaycan Energetika Nazirliyi. (n.d.). Türkdilli dövlətlərin əməkdaşlıq şurası. https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler/turkdilli-dovletlerin-emekdasliq-surasi*

*6. UNWTO. (2023). UNWTO World Tourism Barometer, 21(1). https://www.e-unwto.org/doi/epdf/10.18111/wtobarometereng.2023.21.1.4*

*7. Hürriyet Daily News. (2023, February 6). Türkiye's population hits new high over 85 million: TÜİK. https://www.hurriyetdailynews.com/turkiyes-population-hits-new-high-over-85-million-tuik-180665*

*8. President of Azerbaijan. (2020, February 25). President Ilham Aliyev attended... https://president.az/az/articles/view/34442*

*9. Akbar, I., Myrzaliyeva, Z. K., Tazhekova, A. Z., Arystanova, K. O., & Kozhokulov, S. (2021). Resource potential assessment for the tourism cooperation on border territory of Almaty (Kazakhstan) and Issyk-Kul (Kyrgyzstan) regions. Хабаршы. География сериясы, 1(60). https://doi.org/10.26577/JGEM.2021.v60.i1.04*

*10. Bayseitova, M. R., Abyshova, A. Zh., & Kozhokulov, S. S. (2021). Роль Охраняемых Территорий в Туризме Кыргызстана. Наука, Новые Технологии и Инновации Кыргызстана, 4, 156–157. https://doi.org/10.26104/NNTIK.2019.45.557*

*11. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. (2019). 2019-cu ilin yekunlarına dair mətbuat buraxılışı. https://mfa.gov.az/az/news/no41819nbsp2019-cu-ilin-yekunlarina-dairnbspazerbaycan-respublikasi-xarici-isler-nazirliyinin-nbspmetbuat-buraxilisi*

*12. TÜRKSOY. (2022, April 19). TÜRKSOY anma illəri. https://www.turksoy.org/haberler/2022-04-19-turksoy-anma-yillari*

*13. OECD. (2023). OECD Economic Outlook, Volume 2023 Issue 1. https://www.oecd.org/en/publications/oecd-economic-outlook/volume-2023/issue-1_ce188438-en.html*

*14. Bakı Vaxtı. (2025, May). İlham Əliyev: Azərbaycanın iştirakı ilə TDT qlobal oyunçuya çevriləcək. https://bakivaxti.az/az/posts/detail/ilham-eliyev-azerbaycanin-istiraki-ile-tdt-qlobal-oyuncuya-cevrilecek-1756276123*

*15. World Bank. (2023). [Report]. https://documents.worldbank.org/en/publication/documents-reports/documentdetail/099092823161580577*

*16. Huang, S., & co-authors. (2018). [Tourism article]. Journal of Hospitality and Tourism Management.https://www.sciencedirect.com/science/article/abs/pii/S1447677018300755*

*17. Dövlət Statistika Komitəsi. (2025). Tourism yearbook 2025. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/tourism_2025.pdf*

*18. Asian Development Bank. (2022). Key indicators for Asia and the Pacific 2022. https://www.adb.org/publications/key-indicators-asia-and-pacific-2022*

*19. Turizm Şurası. (n.d.). Turizm üzrə vahid məlumat bazası. https://tourismboard.az/az/page/872-turizm-uzre-vahid-melumat-bazasi*

**G.Kh. Samedova,**
**PhD in Economics, Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan.**

## Analysis of the Current State of Tourism Relations between Turkic-Speaking Countries and Their Development Prospects

### SUMMARY

This article analyzes the current state of tourism relations between Turkic-speaking countries and their development prospects. It determines the economic efficiency of cooperation between Turkic-speaking countries within international organizations and identifies potential challenges in this area.

The article concludes with an analysis of the current state of tourism relations between Turkic-speaking countries and their development prospects, and substantiates the proposals. A list of references is provided at the end of the article.

**Keywords:** *Turkic-speaking countries, international organizations, tourism, economic cooperation.*

**Г.Х. Самедова, Доктор философии по экономикческим наукам, Институт Экономики Министерства Науки и Образования Азербайджанской Республики.**

## Анализ современного состояния туристических связей тюркоязычных государств и перспектив их развития

### РЕЗЮМЕ

В статье анализируется современное состояние туристических отношений между тюркоязычными странами и перспективы их развития. Определяется экономическая эффективность сотрудничества тюркоязычных стран мира в рамках международных организаций, а также указываются потенциальные проблемы в этой сфере.

В конце статьи анализируются результаты анализа современного состояния туристических отношений между тюркоязычными странами и перспективы их развития, а также обосновываются предложения. В конце статьи приводится список цитируемой литературы.

**Ключевые слова:** *тюркоязычные страны, международные организации, туризм, экономическое сотрудничество.*

*Rəyçi: İqtisad üzrə fəlsəfə doktoru, dosent Ələsgər Sarıyev*
*Məqalə redaksiyaya daxil olub: 11.09.2025*
*Çapa qəbul olunub: 26.09.2025*

*The date of the admission of the article to the editorial office: 11.09.2025*
*Accepted for publication: 26.09.2025*